**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№343/4** **14 aprel 2022-ci il**

**“Auditorların məsuliyyətinin gücləndirilməsi tədbirləri”nin layihəsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 1.1-ci “Auditə dair qanunvericiliyinin təkmilləşdirilməsi” bəndinə dair plan-proqramın 7-ci “Qanunvericiliyin pozulmasına görə auditor təşkilatlarının və auditorların inzibati məsuliyyətlərinin gücləndirilməsi” bəndinə müvafiq olaraq hazırlanmış və Palata Şurasının 2021-ci il 26 noyabr tarixli iclasında müzakirə edilərək göstərilən irad və təkliflər nəzərə alınmaqla yenidən işlənmiş “Auditorların məsuliyyətinin gücləndirilməsi tədbirləri”nin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditorların məsuliyyətinin gücləndirilməsi tədbirləri”nin layihəsi bəyənilsin (əlavə olunur).

2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, “Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında” Əsasnamənin layihəsi təsdiq edildikdən sonra bu Əsasnamənin müddəalarına uyğunlaşdırılmaqla “Auditorların məsuliyyətinin gücləndirilməsi tədbirləri”nin layihəsi yenidən işlənib Auditorlar Palatası Şurasının iclasında müzakirə olunması üçün təqdim edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**